# AZƏRBAYCAN ATLETİKA FEDERASİYASI

# ETİKA MƏCƏLLƏSİ

Azərbaycan Atletika Federasiyasının Etika Məcəlləsi, Azərbaycanda atletika idmanının fəaliyyəti və inkişafı üçün güclü etika təməllərini təmin etmək üçün yaradılmışdır.

## Maddə 1. Məqsəd

Etika Məcəlləsinin əsas məqsədi - ədalətli idman rəqabəti üçün şərait yaratmaq, müasir cəmiyyətdə ədalətli idman və hüquq bərabərliyinə zidd olan davranış və hərəkətlərin mənfi təzahürlərinə qarşı mübarizə aparmaqdır.

## Maddə 2. Tətbiq olunma

1. Bu məcəllə aşağıdakı şəxslərə tətbiq olunur:

a) Atletika Federasiyasının üzvləri, hansı ki, AAF adından çıxış edir və ya çıxış edə bilər, (AAF işçiləri də daxil olmaqla)

b) Azərbaycan Respublikasının vətəndaşı və ya sakini olan bütün idmançılar, Azərbaycan ərazisində qeydiyyatdan keçmiş bədən tərbiyəsi və idman təşkilatlarının üzvləri, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasının sakini olmayan idmançılar, həmçinin Azərbaycan Respublikasının ərazisində yaşayan idmançılar, Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş idman təşkilatının idmançıları

c) İdmançılara yardım edən hər hansı bir şəxs, idmançılara kömək edən və tibbi yardım göstərən şəxslər

d) AAF tərəfindən təşkil edilən idman tədbirlərinin məsul şəxsləri, idman hakimləri, idman nümayəndə heyətinin üzvləri, münsiflər heyəti (bundan sonra – məsul şəxslər).

2. Bu məcəllə Atletika idman növünün etibarlılığına, dürüstlüyünə və nüfuzuna toxunan hər hansı bir hal olarsa tətbiq olunur.

**Maddə 3. Davranış**

1. AAF üzvləri bu məcəllənin müddəaları ilə tanış olmaq üçün şəxsən məsuliyyət daşıyır.
2. Bütün AAF üzvləri, Etika Qaydalarının hər hansı müəyyən edilmiş pozuntusunu AAF İntizam Komissiyasına, AAF Prezidentinə və ya AAF rəhbərliyinə dərhal bildirməlidir.
3. AAF üzvləri, öz hərəkətləri ilə birbaşa və ya dolayısı yol ilə etika qaydalarının pozulmasına yönəlmiş hərəkətlərə yol verərsə, maneə törətməzsə və ya bu pozuntu görə-görə heç bir hərəkət etməzsə, onlar etika davranışı qaydalarını pozan şəxslər hesab olunurlar.
4. Beynəlxalq Atletika Assosiyasiyalarının Federasiyasının Etika Məcəlləsində göstərilmiş hər hansı bir qayda, AAF Etika Məcəlləsi qaydası ilə ziddiyyət təşkil edərsə, və yaxud da onların anlaşmasında ziddiyyət olarsa, o zaman Beynəlxalq Atletika Assosiyasiyalarının Federasiyasının Etika Məcəlləsindəki müddəalar üstün sayılır.

**Maddə 4. Dürüstlük**

1. AAF üzvləri, AAF-ın və ümumilikdə Atletika idman növünün nüfuzuna zərər gətirən heç bir hərəkətdə davranmamalıdırlar.
2. Öz vəzifələrini yerinə yetirərkən, AAF üzvləri vicdanla, dürüst və məsuliyyətli davranmalıdırlar.
3. AAF üzvləri, atletika idman növünün nəticələrinə aid heç bir mərcdə iştirak etməməli, İdman yarışlarının nəticələri ilə bağlı manipulyasiya aparmamalı, idman yarışlarının nəticələrinə qanunsuz təsir göstərməyə və digər korrupsiya əməllərində iştirak etməyə çalışmamalıdır.
4. AAF-ın üzvləri öz səlahiyyətlərindən sui-istifadə etməməlidirlər.

**Maddə 5. Antidopinq**

AAF üzvləri birmənalı olaraq qəbul edirlər ki, dopinq , Beynəlxalq Bədən Tərbiyəsi və İdman Xartiyasında və Olimpiya Xartiyasında qeyd olunan etika prinsiplərini və idman dəyərlərini təhlükə altına alır və idmanda dopinqlə mübarizə qaydalarına birbaşa əməl etməyi öz öhdəliyinə götürürlər.

## Maddə 6. Bərabərlik

AAF-ın fəaliyyətində heç bir irqi, cinsi, milli, mədəni, dini, siyasi və digər haqsız və ya əsassız ayrı-seçkilik halı yol verilməzdir.

## Maddə 7. Ləyaqət

1. Şəxsi ləyaqətin qorunması, Atletika idman növünün əsas prinsiplərindən biridir. Hər hansı bir şəxsin istənilən formada şərəf və ləyaqətinin təhqir olunması qadağandır.
2. AAF üzvləri bir-birinə qarşı, qarşılıqlı hörmət və etibar göstərməlidir.

## Maddə 8. İctimailik

AAF üzvləri, heç bir halda Azərbaycan Atletikası barədə və Azərbaycan Atletika Federasiyası barədə ictimai şəkildə, həmçinin də internetdə sosial şəbəkələr vasitəsilə hər hansı bir şəkildə mənfi fikir söyləməməlidirlər.

## Maddə 9. Seçkilər

AAF-ın seçki yolu ilə seçilən mövqelərinə namizəd olan şəxslər, seçkiqabağı seçim kampaniyasını ədalətlə və rəqiblərinə hörmətlə keçirməlidirlər.

## Maddə 10. Məxfilik

1. AAF üzvləri, habelə məsul şəxsləri, qanunvericilikdə məlumatın açıqlanması tələb olunmadığı təqdirdə, işlə bağlı onlara ötürülən hər hansı bir məxfi məlumatı heç bir şəkildə digər tərəfə ötürməməlidirlər.
2. Bir fəaliyyətlə bağlı əldə edilmiş gizli və ya gizli olmayan hər hansı məlumat, şəxsi mənfəət və ya xeyir üçün istifadə edilə bilməz və hər hansı bir şəxsin və ya təşkilatın nüfuzuna zərbə vurmaq üçün istifadə edilməməlidir.

**Maddə 11. Qanunsuz mükafatlandırma**

1. AAF üzvləri,birbaşa və ya dolayısı yolla, hər hansı bir yarışın təşkilatçılığına, seçkilərə, hər hansı bir şəxsin vəzifəyə təyin edilməsinə dair heç bir qanunsuz mükafatlandırma, komissiya ödənişləri, gizli gəlir ödənişlərində iştirak etməməlidir.

2. Hədiyyə və hədiyyə kimi təşəkkür naminə verilən əşyalar yalnız hörmət və dostluq əlaməti olaraq verilə bilər və onların dəyəri 200AZN-dən artıq olmamalıdır

3. Bütün hallarda, Atletika idman növündəki fəaliyyətlə bağlı, İdman yarışlarında təşkilatçılar tərəfindən müəyyən edilmiş pul mükafatı istisna olmaqla, hədiyyə şəklində istənilən məbləğdə pul verilməsi və yaxud da alınması qadağandır

4. AAF üzvlərinə və AAF rəhbərliyinə, həmçinin AAF-in idarə heyətinə və səlahiyyətli şəxslərinə göstərilən qonaqpərvərlik həddindən artıq olmamalıdır.

**Maddə 12. Birliklər**

AAF üzvləri, fəaliyyəti və nüfuzu bu Məcəllədə göstərilən prinsiplərə uyğun olmayan təşkilat və ya şəxlərlə heç bir əlaqədə olmamalıdırlar.

**Maddə 13. Müstəqillik**

AAF üzvləri və rəhbərliyi qərar qəbul edərkən AAF-in maraqları çərçivəsində qərar verməli, şəxsi, maliyyə və digər maraqlarından asılı olmayaraq hərəkət etməlidirlər.

**Maddə 14. Tərəfsizlik**

AAF üzvləri, AAF adından fəaliyyətləri zamanı, siyasi tərəfsizliyini göstərməli, dövlət strukturları, yerli və xarici təşkilatlara əlaqə zamanı neytrallığı saxlamalıdırlar.

**Maddə 15. Məsuliyyətin tətbiq edilməsi**

1. İdmançıların Etika məcəlləsinə əməl etmsinə, idmançılar özləri məsuliyyət daşıyırlar. Yetkinlik yaşına çatmayan idmançılar halında isə, valideynləri və ya qəyyumları, onların üzv olduğu bədən tərbiyəsi və idman təşkilatlarının rəhbərləri və şəxsi məşqçisi və şəxsi nümayəndəsi (meneceri, əgər varsa) məsuliyyət daşıyır.
2. Məşqçilərin  Etika məcəlləsinə əməl etməsinə, məşqçilərin özləri məsuliyyət daşıyırlar. Həmçinin, onların əmək müqaviləsi bağladığı bədən tərbiyəsi və idman təşkilatlarının rəhbərləri də məsulliyət daşıyır.
3. Yarışlarda, komanda nümayəndələrinin etik davranış qaydalarına riayət etməsi üçün məsuliyyəti, onların məşqçilik fəaliyyəti ilə məşğul olduğu bədən tərbiyəsi və idman təşkilatlarının rəhbərləri də məsuliyyət daşıyır.
4. İdman həkimləri, masaj terapevtləri, idman menecerləri, idman hakimləri etika qaydalarına riayət etməyə şəxsən məsuliyyət daşıyırlar.
5. AAF rəhbərləri, AAF struktur bölmələrinin rəhbərləri, AAF komitələrinin üzvləri, yarışların təşkilatçıları, bədən tərbiyəsi və idman təşkilatlarının rəhbərləri etik davranış qaydalarına riayət etmək üçün şəxsən məsuliyyət daşıyırlar.
6. Etika qaydalarının pozulmasına görə məsuliyyətə cəlb edilmə, bu Məcəllə ilə tənzimlənir.

**Maddə 16. Məsuliyyət**

1. Etika Qaydalarının normalarını pozduğuna görə, bu qayda pozuntusuna məsuliyyət daşıyan istənilən şəxs məsuliyyətə cəlb edilə bilər.
2. AAF-da Etika Məcəlləsinin pozulmasına dair məsələlərin nəzərdən keçirilməsi yalnız AAF İntizam Komissiyasının səlahiyyətlərinə aiddir.
3. AAF İntizam Kommissiyası, əsasnamə əsasında fəaliyyət göstərir.
4. İntizam Kommissiyasının qaydaları pozan şəxslər haqqında çıxardığı qərarların yerinə yetirilməməsi və ya qismən yerinə yetirilməsi halında, həmin şəxslər əlavə məsuliyyətə cəlb edilə bilər.
5. İntizam Komissiyası müstəqil olaraq məsuliyyət və müddətin müəyyənləşdirilməsinə dair qərar verir.
6. AAF İntizam Komissiyası, pozuntunun dərəcəsindən asılı olaraq, aşağıdakı tədbirlərin tətbiq edilməsi barədə qərar qəbul etmək hüququna malikdir:

- Xəbərdarlıq verilməsi
- Pozuntunun ictimai şəkildə mühakimə edilməsi və AAF-ın internet saytında bu barədə məlumatın paylaşılması
- Yarışın nəticəsinin ləğv edilməsi
- İctimai şəkildə üzr istənilməsini tələb etmək
- AAF sistemində rəhbər vəzifədə çalışmağa qadağa qoyulması
- AAF himayəsi altında keçirilən rəsmi yarışların ziyarət (iştirak) edilməsi
- AAF-in himayəsi altında keçirilən yarışlarda iştirakdan və onların təşkili və hakimlik ilə bağlı müsabiqələrdə və digər fəaliyyətlərdə iştirakdan uzaqlaşdırmaq
- İşin, diskvalifikasiya səlahiyyətləri olan bir quruma ötürülməsi;
- İşin baxılmasını, İntizam tənbehi tətbiq etmək səlahiyyətləri olan bir quruma ötürülməsi